Bəhram Bilaloğlu

# ƏDALƏT YOLÇUSU

**Bəhram Bilaloğlu**
**ƏDALƏT YOLÇUSU**
Bakı, Qanun Nəşriyyatı, 2022, 88 səh.

Ölçü: 130x200 mm
Cild: qalın
Çapa imzalandı: 16.07.2022

| | |
|---|---|
| Redaktor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB

© Qanun Nəşriyyatı, 2022
© Bəhram Bilaloğlu , 2022

# ŞEİRLƏR

## Lövbərsiz gəmi

Lövbərsiz gəmiyəm, üzürəm çayda,
Qorxudur əks əsən küləklər məni.
Məqsədim limana çatmaq olsa da,
Aparır tərsinə fələklər məni.

Dalğalar qəsdimə çıxıbdır yaman,
İmkan da vermirlər – üzüm mən rahat.
Sanma, yoxdur lövbər, çatmaram daha,
Gəl sil bu istəyi, düşünmə heç, at.

Arzular limanda dolaşdı, qaldı,
Köhnə xatirələr yenə canlandı.
Sonsuz ümidlərim qalxdı, ucaldı,
Bəhramı bu yolda görən anladı.

## İttiham

Təbiət qoynunda gəzdikcə gəzdim,
Yox idi sənintək belə bir gözəl.
Zahirən nur olan, daxilən zülmət,
Bağışla, adına yazıram qəzəl.

Hissimlə yaşadım, aldatdın məni,
Hardan biləydim ki, şeytan olmusan.
Üzü parıldayan, zülmət nurunun,
Altında dayanıb qəmə dolmusan.

Cildini dəyişib, insan cildində,
Don geyib, şəhvətə yollar açmısan.
Zəif insanların qəlbinə girib,
Gah sağa, gah sola, yana qaçmısan.

Neçə insanların ürəyinə də,
Ad yazıb, adını mələk qoymusan.
Günahdan yoğrulan eybəcər məxluq,
Yazıq adamların gözün oymusan.

## Vətən övladları!

Cığır salırdılar
Şəhid olurdular
Qarda qalırdılar
Vətən övladları!

Tarix yazırdılar
Bəzən azırdılar
Səngər qazırdılar
Vətən övladları!

Şuşa yollarında
Əsgər qollarında
Dağın kollarında
Vətən övladları!

Həsrət qoxuyurdu
Məktub oxuyurdu
Mərmi toxuyurdu
Vətən övladları!

Kama çatırdılar
Çaxmaq çaxırdılar
Güllə atırdılar
Vətən övladları!

## Xatirələr yaşadır

Necə unudum ki, keçmişi indi,
Axı, xatirələr yaşadır məni.
Dəyişib zamanla xasiyyətini,
Guya tanımayıb heç vaxtı səni.

Bədbin adamların sayı çoxalıb,
Narazı-narazı gəzirlər, vallah.
Şükür yox dilində, çəkmir əziyyət,
Bağışla, əfv elə, bunları Allah.

Biri önə gedir, çatmaq istəyir,
Tanrıya ərz edir, şikayət edir.
Ədalət görməyir, həvəsdən düşür,
Bu adam ömrünün sonuna gedir.

Ümiddir yaşadan insan övladın,
Aparır gələcək həyata onu.
Bəxş edir sevinci, bəxtiyar olur,
Daha tez bitməyir bu ömrün sonu.

## İmansız etmə məni

Yatmışdım, yuxuda fikir edirdim
Düz yollar çox idi, əksin gedirdim.
Oyanıb, Allahı zikir edirdim,
İlahi, imansız etmə sən məni.

Qəlbləri fəth etdim, yolunda azdım,
Axtardım şeytanı bir quyu qazdım.
Əhd-peyman bağladım, imandan yazdım,
İlahi, imansız etmə sən məni.

Zövq aldım hər zaman təqva-imandan,
Qaçdım hey qaçdıqca, bilin nadandan.
Mənasız sayılar, iman – zamandan
İlahi, imansız etmə sən məni.

## Ağlama, ey ruhum

Bir şəkilə diqqət edib, xəyallara dalmışam,
Aparıb fikri-xəyalım, fikrə dalıb qalmışam.
Həyatdan almışam kamı, qəm evinə gəlmişəm,
Guya, yaşayan adamam, haqsız adam, ölmüşəm.

Elə bilmə ölən mənəm, bir kədər dəfn etmişəm,
Ağlama, ey ruhum mənim, bil ki nakam getmişəm.
Yetim uşaq ağlayanda, pis olub, tez öpmüşəm,
Yaşamadım xoş bir ömür, bu dünyadan ötmüşəm.

Fəth etmişəm zaman-zaman eşq duyan insanları,
Çox görmüşəm bu həyatda tox olan nadanları.
Əzib-keçib kasıbları, saymayıb adamları,
Görmədim olsun vicdanı, nə gəzir imanları?!

## Tənha qalmadım

Tənha yaşamağa vərdiş etmədim,
Apardı tənhalıq, tək də getmədim.
Ömür yollarımı sənsiz ötmədim,
Allahın bəxtimə yazdığı mələk.

Bəxtiyar etmisən gəldiyin gündən
Daha getmərəm ki, deyim, mən səndən.
Gəl ovut qəlbimi, ruhu al məndən,
Allahın bəxtimə yazdığı mələk.

Tac oldun başıma, qorudum səni,
Verdiyin sevginlə yaşatdın məni.
Qoymadın saçıma düşsün ağ dəni,
Allahın bəxtimə yazdığı mələk.

Unutdum təki də, tənha qalmadım,
Ən gözəl gülü heç, sənə almadım.
Alışdım sevgindən, gültək solmadım,
Allahın bəxtimə yazdığı mələk.

## Ədalət yolçusu

Qaranlıq dünyalar içində gəzdim,
İşıqlı dünyadan görən olmadı.
Aşkar görünürdü bütün sifətlər,
Qəflət yuxusundan duran olmadı.

Yatanlar çox oldu, oyadanı yox,
Sakitcə seyr edib geri qayıtdım.
Oyatmaq həvəsim olmadığından,
Sildim bu həvəsi, qəlbimdən atdım.

Ta əzəldən belə, yuxular şirin,
Qiyamət günləri olacaq çətin.
Cansız cisimlər də gələcək şahid,
İnsanı vahimə edəcək mətin.

Elə düşünmə ki, bu bir sonluqdur,
Qayıtmaq gec deyil, dərk edin bunu.
Ədalət yolçusu olan insanın
Anlayın, cənnətdir, şübhəsiz, sonu.

## Qəm yerinə gül

Çəkirəm xeyli zamandır,
Gecələr dərd-qəm çəkirəm.
Aparır, fikir aparır,
Qəm yerinə gül əkirəm.

## Şəfa ver özün

Bəlkə də həvəsdir yaşamaq özü
Sanki əbədidir şairin sözü.
Neylirəm, görsün e baxanın gözü
Allah, kor olana şəfa ver özün.

Yoxdursa dilimdə haqqın kəlməsi
Məhv edibdir məni şeytan fitnəsi.
Haqqında yazdığım son bir naməni
Allah, kor olana şəfa ver özün.

İmansız imandan danışdı, dindi,
Axtardım – tapmadım imanlı indi.
Görmədim, kor oldum, gözlərim söndü
Allah, kor olana dəva ver özün.

## Uca zirvədə

Bu gün xoşbəxtəmsə, sənsən səbəbi,
Əhd-peyman bağladım səninlə, Allah.
Yazdın taleyimə gözəl anları,
Sevdiyin bəndənəm, etmədim günah.

Üz tutdum qibləyə, axtardım heyhat,
Yaxından da yaxın duydun sən məni.
Ən uca zirvədə gördüm Rəbbimi,
Axtarma üstünün, – mum edər səni.

Vasitə göndərdin, çatım arzuma,
Nail oldum, şükür, sənli dünyama.
Eşqin açarını tapandan sonra
Qayıtdım geriyə, mən öz röyama.

## Yaxın dost

Ən yaxın dostumdur, incə qələmim,
Tapıram təsəlli, yaxın olanda.
Neylirəm o şablon sözlərini ki,
Halıma yanmayıb qəmə dolanda.

Nə söz soruşuram, nə cavab verir,
Danışmır, dili yox, ancaq dinləyir.
Şairə baxanda əmri gözləyir,
Burdayam, buyur de, içdən söyləyir.

Soruşur uzaqdan hal-əhvalımı,
Neylirəm verdiyin ağrı-acını.
Halım da qalmayıb, çəkim ağrımı,
Gəl bir dərmanım ol, at acığını.

## Hər damcıdan kədər

Süzülür göz yaşın yanaqlarından,
Axan hər damcıdan kədər tökülür.
Əfv elə sevdiyim, bağışla məni,
Zamanla tikdiyim hasar sökülür.

Bilməzdim, əzəldən kövrək olmusan,
Saxlardım gözümün üstündə səni.
Əlimdə olmayan səbəblər var ki,
Ayırdı sevgidən, aldatdı məni.

Qəlbimə adını elə yazdın ki,
Yatmadım gecələr, səni yad etdim.
Bir vaxtı boşuna ümidlər verdin,
Qapandım hissimə, dalınca getdim.

Sonunda anladım həqiqi eşqin,
Mədəni, ilahi eşq qapısıdır.
Ağzında durmasın hansısa məxluq,
Bilin, sevənlərin eşq acısıdır.

## Dünyanın vəhşəti

Elə bir səkidə addımlayıram,
Sağımda ot basmış ayaq izləri,
Divarda yazılan yazılar dəhşət,
Zalım, bu dünyada, bax budur vəhşət.
Düşünmək çətindir, necə düşünüm?
Ayaqlar büdrəyir, fikirləşəndə,
Neçə gözlər indi, qəmə batıbdır,
Yuxusuz gecələr, keçirənlər çox.
Əriyir şam kimi həsrət çəkənlər,
Solumda elə bil uşaq ağlayır,
Düşmən tərəfindən çox odlar yağıb,
Yaşıl otlar belə alovla yanıb.
Bəlkə də tanrının bir qismətidir,
Qovuşur sevənlər, intizar bitir,
Şəhidlər ən Ali zirvəyə yetir!

## Gözəlim üçün

Haqqında, gözəlim, şeir yazıram,
Əbədi qalacaq, silinməyəcək!

Bir zaman, sevgimi bəyan elədim,
Danışdı gözlərin, dinmədi dilin.
Etiraf etsəydin, desəydin əgər,
Boşuna getməzdi, bax həmin ilim.

Namə yazdım neçə namə ardınca,
Yalandan yazaraq vədələr verdin.
Bilsəydim sevməzdim, vəfasız səni,
Hardan mənim belə, qəlbimə girdin?

Satdın saf eşqimi, dünya varına,
Sevgi, məhəbbəti heç anlamadın.

Yaşadın bir ömrü, eşqsiz yaşadın,
Nə üçün özünü sən danlamadın?

İndi səhv düşübdür yerimiz, inan,
Daha uyğunlaşaq, etməyək tüğyan.
Cismən yaşamadıq, ruhən bir olaq,
Axırı olacaq bizi də duyan.

Axırı olacaq bizi də duyan!

## Axıram su kimi

Bir dünya içində dünya gəzirəm,
Axıram su kimi mən öz dünyama.
İnsanlar cildində şeytan görürəm,
Qayıdır təkrarən o göz dünyama.

## Sətirlərə yazdım

Sətirlərə yazdım ağrı-acımı,
Anlayan olmadı, soran olmadı.
Həsrətin çəkdiyim xoşbəxt həyatın,
Yanında xoş həyat quran olmadı.

Hər gün fikir çəkdim, amma çalışdım,
Faydasın görmədim, yaman dolaşdım.
Dünyaya deyil ki, insana baxdım,
Mən də yaşamağa belə alışdım.

Tanrıdan istədim firavan həyat,
Qismətimdə olsun, yaşayım bir az.
Nakam yaşamasın cahanda insan,
İlahi veribdir, etmə etiraz.

Yazdım misra-misra, əməl eləyin,
Düz sözə düz deyin! Ötüb keçməyin.
Nadan adamlara inanc etməyin,
Ariflər sözündə səhvi seçməyin.

## Kaş ki...

Mənafeyin güdən gördüm, ağladım,
Yazıq ürəyimi sanki, dağladım,
Özün düşünənə bel də bağladım
Kaş ki olmayaydım belə bir adam.

Səmimi davrandım, haqqımı yedin,
Borclu bildin məni, haqqımdır dedin.
Gözün heç doymadı, artıq mən gedim
Kaş ki olmayaydın elə bir adam.

Təvazökar bildim, imanlı sandım
Allahın bəxtiyar insanı andım!
Əzdin kasıbları – dözmədim, yandım,
Kaş ki gəlməyəydin belə bir adam!

## Arzu-istək

Sağ olanda şeir yazdın sevgidən,
Qədir-qiymətini bilən olmadı.
Qurdular heykəli, öləndən sonra,
Əbədi yaşadın, silən olmadı.

Nə gözəl olardı, yaşayaydın sən,
Ucalmış adına şərəf duyardın.
Neylirdin dünyanın malı, mülkünü,
Kaş o günü görüb rahat uyardın.

Nakam ömür sürür şairlər çoxu,
Hər kəsin fikrini özləri çəkir.
Daha dözmür ürək, ömrü bitirir,
Düzərək sözləri misralar əkir.

İz qoyur bir sözü, neçə ürəkdə,
Yarı məlhəm olur, yarı qəm olur.
Hər kəs anlamaz ki, heç kəs də bilməz,
Ağaran saçlarda neçə dən olur.

## Gəzmə bu cahanı

Yazmaq istəyirəm gözəl həyatdan,
Gözəlliklər məndən küsməsin deyə.
Ay mənim gül qoxan nazlı nigarım,
Səntək gözəl varmı, heç özün öyə.

Sevginlə yaşadım, həm də ucaldım,
Axdın şirə kimi, qəlbə yol tapdın.
Qəribə hiss idi, necə yaşadım,
Toz edib sevgini, xəmirtək yapdın.

Çıxmır ürəyimdən, nədir bu sevgi,
İllərdir yaşayır, yurd salıb orda.
Aparma, nə ötən, nə də o vaxta,
Əfv elə, bağışla, de – qalıb orda.

Silmərəm heç zaman onu qəlbimdən,
Saf olan bir yerdə məskən salıbdır.
Gəzmə bu cahanı, çəkmə əziyyət,
Gözəllik hamısı məndə qalıbdır.

## Bilinmir

Azmışam səhranın izsiz düzündə,
Hara gedirəmsə, məkan bilinmir.
İtirdim o vaxtı, əmanətini,
Axtardım, tapmadım – zaman bilinmir.

Çoxu indi yatmış, oyadanı yox,
Hələ də düşünür yaxşı yaşayır.
Qubar bağlamışdır yazıq ürəyi,
Xəbəri yoxdur ki, dərd-sər daşıyır.

Yanır kövrək qəlbim, neçə qəlblərə,
İşsizlik adıyla qorxu gəlirlər.
Adamın əlindən haqqını alıb,
İstismar edərək, pulun alırlar.

Baxın ey adamlar, məzlum adamlar,
Yeyir haqqınızı baxın nadanlar.
Yox deyin! Olmasın bir də bu anlar,
Dərk etsin bilsinlər, susan insanlar.

## Əzabkeş

Sən mənə dedin ki, hələ bilinmir,
Yoğurdun həmin vaxt şübhə xəmrini.
Sevincə şərikdin, kədərdən ayrı,
Saxladın içində – vermədin əmri.

Sanma özün kimi məni həyatda,
İllərdi əzablı yollar gəlirəm.
Nakam yaşayaraq gördüklərimi,
Sevincli günlərlə bir ələyirəm.

İnandım hər zaman, inandım sənə,
Sandım ki müdriksən, həm ağıllısan.
Nə biləydim axı vəfasız insan,
O günü barəmdə nağıl yazmısan.

Şahidi oldum de – zamanla bildim,
Uğruna sevindim, arzu dilədim.
Keçdiyin yolların izinə düşüb,
Anla ki, hər zaman dua elədim.

## Dərd yükü

Yenə səhər oldu, dərdlər çoxaldı,
Ovçu ov etməkçün gedib ox aldı,
Yemə gələn quşlar daha yox oldu,
Kamına çatmadı, şikarsız qaldı
Dünya özü məni, bax, dərdə saldı.

Qəmə yoldaş oldum, kədər də gəldi,
Yatmadım gecələr, yuxum çəkildi,
Vəfasızlar gördüm, şeytanla əldi,
Bu həyat dastandı, həm də şəkildi
Xatirələr şəkli, gör nə gözəldi.

Çox insan qonaqtək, gəldi də getdi,
Dərk edən az oldu, günah çox etdi,
Yardım etmədi heç, yanından ötdü,
Düşünmədi insan, fani həyatdı
Yaxşılıq etdiyin köhlən bir atdı.

## Haqq yolu

Aparır xəyallar arzu dalınca,
Yetişir murada, kamala çatan.
Sıxma ürəyini, darıxma daha,
Bir gün tapar səni xoşbəxtlik satan.

Bilirəm, ümidin çoxdu, əzizim,
Yaşamaq özü də şansdır, biləsən.
Nəfəsin gəlməsə, nə edəcəksən,
Allahı yada sal, şükür elə sən.

Bir yol tutmuşam ki, dönmərəm yoldan,
Haqq yolu yolların ən gözəlidir.
Bəşər aləminin çərçivəsində
Tanrının izi var, bil ki özəldir.

Haraya aparmır xəyalın səni,
Bir yerdə dayanıb, dünya gəzirsən.
Qayıdıb olduğun həmin məkana,
Vərəqləyib ömrü, yaman əzirsən.

## Xəzinə qutusu

Qorxduğun nədir ki, de – mən də bilim,
Xəzinə qutusu olubdur qəlbim.
Yığmışam dünyanı sətirlərimə,
Sözdən sirr düzəldib, dolubdur qəlbim.

Başımı əymədim, heç vaxt namərdə,
İstər tacir olsun, istər şah olsun.
Vallah, gün yaşadım, qəpiyə möhtac,
Kimsəni görmədim, gözləri dolsun.

Polad deyiləm ki, amma möhkəməm,
Söykəndiyin yerdə bil bələdçiyəm.
Qorxma, ver sirrini, sirr içindəyəm,
Güvəncli yerinəm, gəl, bələdçiyəm.

İnam da qalmadı, yalan əlindən,
Qıl çarə faniyə, olmasın daha.
Ey haqqı dananlar, gəlin imana,
Allaha ərz edin, batdıq günaha.

İçdim gül eşqinin mey, şərabını,
Alışaq sevgiyə, gəl həmdəm olaq.
Bir ömür sev məni, unutma, gülüm,
Yaşayaq daima, qəlblərdə qalaq.

## Tövsiyə

İçdim gül eşqinin mey, şərabını,
Alışaq sevgiyə, gəl həmdəm olaq.
Bir ömür sev məni, unutma, gülüm,
Yaşayaq daima, qəlblərdə qalaq.

Danış mənə bir az, məst olum yenə,
Fəth etdiyin yerdən, ürəkdən danış.
Nakam məhəbbəti qoy bir qırağa,
Sevək, sevgimizlə olaq biz tanış.

Sevginin binası olmur ki olmur,
Qururlar sevənlər özləri bina.
Xəmrini şəhvətlə yoğursan əgər,
Sanın ki, sonunda olacaq zina.

Necə yazmayım ki, mən bu sevgidən,
Qan kimi damarda axır sevgilər.
Nə qoysan önünə, deyim ki bilin,
Tam özün göstərər, sanın, güzgülər.

## Dərsini kim danışsa...

Dörd divardı, bir də mən,
Oxuyuram kitabı.
Müəllimim öyrədib,
Eləyirəm xitabı.

Gəl, mövzunu öyrənək,
Cavabımız düz olsun.
Dərsini kim danışsa,
Sabah o da beş alsın.

Başlayırıq yazmağa,
Həsən bir az gec yazır.
Baxıram ki yazdığın,
Düz yazmayır – tez pozur.

Niyyəti də bəllidir,
Oynamaqdır oyunu.
İstedadlı olmasan,
Tanımazlar soyunu.

## Əhdə vəfadar

Tənha bir ürəkdə yuva qurmuşam,
Daha çarəm yox ki, tərk edim onu.
Vəfasız insanlar çox görmüşəm, – de,
Atmaq istəmərəm geydiyim donu.

Yenicə bağ salıb, güllər əkmişəm,
Qoymaram solsun heç, əkdiyim güllər.
Əhd-peyman bağladım səninlə, ürək,
Sanma bu dünyada sevdiyin ölər.

Əbədi sevgilər yaşayar, ölməz,
Ucalar ən uca ali zirvəyə.
Sevirəm sözünü ucuz bilənlər,
Anlamaz, atarlar yersiz şivəyə.

Kainat sirlərdən ibarət olub,
Çoxu anlamayıb, nə sirdir belə.
İnsan yaradaraq, ruh verib cismə,
Aşkardır, adamlar dərk etmir hələ.

## Həm də sevilin

Güllər var, ətrindən heç doymaq olmur,
Olsa da tikanı həmin güllərin.
Gözəllik axtaran, bağçaya gedən,
Batacaq tikana sənin əllərin.

***

Sevin yaşadıqca, həm də sevilin,
Unudan olmasın, atan olmasın.
Məhəbbət bəsləyin, hörmət göstərin,
Adamlar qəlbinə kədər dolmasın.

***

Öndədir, ən gözəl şirin anların,
Aldanma, yolların dərə-təpədir.
İnsanlar dünyaya gələndən bəri,
Adamlar dünyada sanki ləpədir.

***

Pak deyil, fanidir, inanmayın heç,
Şirini acıya satan dünyadır.
Haqsızlıq eləyən naxələf üçün,
Ədalət adamın atan dünyadır.

## Təqvalıq arzusu

Təsəllim şeirdir, xor baxma şeirə,
Rahat olur adam, şeir yazanda.
Dünyanın ən gözəl misralarını,
Oxuyub o vaxtı Bilal – azanda.

Çağırıb islama, haqqın yoluna,
Gözəl səsi verib Allahım ona.
Yox! De – olmamışdır belə bir adam,
İbadət edərək çatsın imana.

Əhli təqva olmaq, – arzumdur mənim,
Çatmağa cəhd etdim, yenə edirəm.
Qəlblərə yol tapıb ovutmaq üçün,
Axtarıb, ən çətin yollar gedirəm.

Ali bir məqama çatmaq istədim,
Dualar dilimdən əskik olmadı.
Bəşəri yaradan uca Allahım,
Sonsuz sevgi verdin, qəlbim dolmadı.

## Çalış yaşat məni

Gecikdin, qatara çata bilmədin,
Arzu, istəklərin yarımçıq qaldı.
Sərnişin! Günahın nə idi sənin,
Zalım fələk onu, bax, səndən aldı.

Çox oldu, sənintək belə gecikən,
Xəyala dalaraq, çatmadım deyən.
Nakam yaşayaraq, bir ömür sürən,
Qəmə düçar olub, ancaq qəm yeyən.

Gözləmə yolumu, vəfasız çıxdım,
Daha görüşümüz sona çatıbdır.
İllərlə sevdiyim, ümid verdiyim,
Demə sevgilim var, məni atıbdır.

Çalış yaşat məni, öldürmə, gülüm,
Necə ki qəlbimdə yaşayırsan sən.
Arada soruşsan hal-əhvalımı,
Deyəcəm, səninçün yaşayıram mən.

# Örnək

Danışmayan adam, necə dözürsən,
İntizar, sıxıntı üzmürmü səni.
Susmayan dillərə örnəksən, örnək,
Gördüyüm haqsızlıq incidir məni.

Dedilər, fanidir bu dünya evi,
Yaşayan çox oldu, unudanı az.
Ədalət çırağın söndürən insan,
Yalan danışaraq etdi etiraz.

Əzəldən aldatdı insan-insanı,
Olmadı dünyada haqqın bayrağı.
Hətta pula görə, satdı namusu,
Guya olmamışdır heç də marağı.

Şikara çevrilən, haqqı deməyən,
Qazancın heç nədir, sonu da zillət.
Hafizlər oxuyur qurandan surə,
Anlasın, Allaha etsinlər beyət.[1]

[1] Beyət – birinin hakimiyyətini qəbul edərək ona tabe və sadiq olmaq.

## Doymaq da olmur

Yaradan nə gözəl yaradıb səni,
Ətrindən, sevgindən doymaq da olmur.
Axı hardan aldın bu məhəbbəti,
Nə qədər versən də, uymaq da olmur.

Allaha çox yaxın olan bəndələr,
Təvazö edərək ruhən qocalmır.
Yaxşı ki, tanıdım əhli imanı,
Bilin, ey insanlar, nadan ucalmır.

Sevən ürəklərdə sevgi yaşayır,
Od tutub alışır, hətta lap coşur.
Bulaqtək qaynayır, dağlardan axır,
Səsinə quşlar da nəğmələr qoşur.

Məhkum olmayasız dünya varına,
Malı da, mülkü də gəldi-gedərdi.
Sevin insanları, sevin həyatı,
Çox qısa ömürdü, yığma hədərdi.

## Saf gülüşlərin

Rəsmini çəkərək kətan parçaya,
Yaddaşıma keçmiş xatirə düşdü.
Sənin üzündəki saf gülüşlərin,
Fırçadan süzülüb şeirə düşdü.

Baxdıqca doymadım, şəklinə baxdım,
Ehh, nə gözəl sənli günlərim olub.
Kaş ki olmayaydı fırçam, kətanım,
Çəkməzdim, sevgilim, gözlərim dolub.

Gözlərimdən axan yaşım olmusan,
Yuxuma gələrək, məni anmısan.
Nə işdi bu belə, daha bilmirəm,
Bəlkə itirdiyin adam sanmısan.

Çox illər keçsə də, həmin zamandan,
Sevgin iz qoyubdur, ləkəsi getmir.
Ayrılıq adında xəstəliyim var,
Dərmanlar atmışam, dərdimə yetmir!

## Hər kəs bir günəş altda

Daha bu dünyada nə qalacaq ki,
De – hər gün çəkirəm əzab-əziyyət.
Ta qədimdən belə qonaq gələnlər,
Gələndən görüblər, budur vəziyyət.

Şənlənən də olub, ağrı çəkən də,
Çaşdırıb özünü, yolu keçən də.
Düz yolu tutmayıb, əksin gedən də,
Anlayardın gərək, səhvi seçəndə.

Toplaşıbdır hər kəs bir günəş altda,
Zülmətə gedərək addımlayırlar.
Yumub göz qapağın, iz salıb orda,
Yanlış bir hədəfə addım sayırlar.

Anlamır nə üçün, niyə yaşayır,
Məqsədi yeməkçün, yaşamaqdadır.
Çatıb insanlığın axır həddinə,
Düşünür görür ki, yaşlanmaqdadır.

## Qeybət etməyək

Ömrü puç eləyir qeybətlə-nifrət,
Çalışın etməyin, xoş gün yaşayın.
Sevgi ötürərək kinli qəlblərə,
Mum edin, əridin, təmiz qaşıyın.

Yaşadar insanı sevgi-məhəbbət,
Nə qəm çəkər adam, nə də ki qüssə.
Qalmasın heç yerdə, boynu büküklər,
Əl verin, qaldırın, ayağı üstə.

Həyatda unutmaq olmur ki olmur,
Yaxşılıq edəni, pislik edəni.
Əkin ürəklərə sevgi toxumu,
Olsun könüllərdə bir eşq mədəni.

Döyünsün ürəkdə neçə bir ürək,
Paklıq ömür sürsün, şən olsun hər kəs.
Ələnsin, qalmasın nə kin-küdurət,
Yaşasın insanlıq! Ucalsın bir səs.

## Ömürlük məskən

Qəlbimdə ömürlük məskən salmısan,
Çalış ki qal orda, getmə heç yana.
Günəş olub, ömrə şəfəq saçmısan,
Qoru saflığını, yazım dastana.

Bu daxildə olan gizli məhəbbət,
Sevən ürəklərdə gül açar, solmaz.
Dodaqlar quruyar, danışmaz dillər,
Bəzən xəyalına gəlməzsə, olmaz.

Sevən könüllərin sevgi ocağı,
Alışır, od tutur, tam başqa olur.
Eşqdən alovlanıb sevən bir ürək,
Yalnız o sevgidən qidalar alır.

Sən elə bir yerdə yurd salmısan ki,
Darıxmaq nədir, heç bilməyəcəksən.
Hər zaman daxildən sığınıb mənə,
Yaddaşından de ki, silməyəcəksən.

## Paklığa çağırış

Doğrudan da sənə köklədim, dünya,
Hər nəyim vardısa, o, səndə qaldı.
Ta uşaq vaxtından indiyə qədər,
Mənəvi paklığım, bax, məndə qaldı.

Üzüldüm küçədə yatan insana,
Oyadan olmadı, get, bir evdə qal.
Bəşərdə müqəssir axtaran insan,
Savab iş görərək xeyir-dua al.

İnsanlar içində çoxdu əzilən,
Allaha əl açıb dualar edən.
Müjdəsin almayıb hər dərdə dözən,
Çatmışdır kamına, dərgaha gedən.

Düşündüm hər kəsi, acı, toxu da,
Qoydum tərəziyə baxım bir daha.
Ərz etdim tanrıma, sən özün bir bax,
Qoyma batırıq biz, ağır günaha.

## Şahidlik

Vəsf etdim, gözəlim, sənin gözünü,
Ayrı bir dünyanın şahidi oldum.
O dərin, mənalı baxan gözlərin,
Axdım sular kimi içinə doldum.

Yaradan nə gözəl yaratmış səni,
Mələklər özləri məəttəl qalır.
Allahın xoşbəxt bir bəndəsisən ki,
Sevgin bu ruhumu əlimdən alır.

Necə bəyan edim, bilmirəm daha,
Qurtar intizardan, sıxıntılardan.
Qəlbim ərp bağlayıb bu ayrılıqdan,
Tab gətirmir ürək sıxıntı, dardan.

Nə ad qoyaq indi, biz bu sevgiyə,
Yarı ayrılıqdır, yarı məhəbbət.
Bəxtiyar olmağı arzu edənlər,
Çatın eşq yoluna – olsun səadət.

## Aldanmayın

Haqqın karvanına qoşulub getdim,
Şəfa da, nicat da o yolda idi.
Allahı görməyi arzu edənlər,
Nəfsinin uğrunda, bilin, şəhiddi!

Satın bu dünyanı, istəməyin heç,
İmtahan edərək hər gün sınayır.
Aldanmayın baldan şirin malına,
Bilin ki insanlıq bizi qınayır.

Qəm çəkərək içir zəhər-şərabı,
Qalmayır adamın daha marağı.
Gərək dərk eləsin haqqı, yalanı,
Olmasın bəşərdə belə bir ağu.

Sanma bir günəşsən, ömrün uzundur,
Hər şəfəq saçanda ömründən gedir.
Yaşa insan kimi, mərd kimi yaşa,
Desinlər mərdlər var, baxın, düz edir.

## Sevinin

Uzaqdan baxanda gözəldir günəş,
İstisi kül edər, yaxına getsən.
Aldanma hər gülən çox sifətlərə,
Büruzə verərlər, onları ötsən.

Şad olun, sevinin dost uğuruna,
Bədbin olmayınız, uğur diləyin.
Don geyib üzünə yaşamaqdansa,
İçdən gələn kini hərdən ələyin.

Nadanlar çoxalıb dövri-zamanda,
Aqil sanır özün arif yanında.
Guya çox istəyir, anlamır daha,
Bəsirət gözümlə gördüm anında.

Kitab oxumaqla çatmazsan ərşə,
Çatdırar zirvəyə eşqi-məhəbbət.
Ötürə biləsən qəlbindən-qəlbə,
Yaradan bəxş edə sonunda cənnət.

## Qələmin sahibi

Enmə öz zirvəndən, çalış orda qal,
Sanma zirvələri fəth edəcəksən.
İlahi yazdığı bir yazı ki var,
Qırağa çıxmadan düz gedəcəksən.

Qələmin sahibi Allahdır, bilin,
Tapammadım başqa yazanı olsun.
Bəşəri yaradan qida verənin,
Yoxdur yaratdığı, pozanı olsun.

Daha axtarmayın başqa yaradan,
Dərk edin, bilin ki, böyükdür Allah.
Qarışqa yarada bilməyən insan,
Rəhman qarşısında, acizsən, vallah.

Təsəvvür etməzsən, gözlə görməzsən,
Yoxdur elə varlıq, tapa bilməzsən.
Eşqini qəlbinə hopdursan əgər,
Bu eşqi qəlbindən ata bilməzsən.

## Qəlblərdən çəkilən yol

Qazancım dünyada olsaydı əgər,
İnsanlar qəlbindən bir yol çəkərdim.
Tapardım ən gözəl rəngli gülləri,
Küsmüş könüllərə tez-tez əkərdim.

Qalmayacaq daha bundan savayı,
Geriyə qayıdıb bir yol açasan.
Çalış, zamanında yaxşı yaşa ki,
Bir qəlb oxşayasan, həm də alasan.

Sonu bilinməyən fani dünyanın,
İşgəncə verəcək əzabı vardır.
Yıxılmış adamlar cismi dik durmuş,
Həyatdan dərd almış, dünyaya yardır.

Anlamadı özün, bilmədi kimdi,
Böyük səhvlər etdi, haqqa getmədi.
Məzlumu saymayıb təkəbbür etdi,
Haqqın dərgahında səcdə etmədi.

## Dərin izlər

Qurduğum xəyallar bir-bir uçurdu,
Qəlbimdə dərin bir izlər açırdı,
Qasnaq bağlayırdı, yenə qopurdu
Tərk edib tez gedən xəyalım mənim.

Çalışdım, yaşadım, səhvə getmədim,
Ümidlər bəslədim, güman etmədim,
Pak oldu niyyətim, sənsiz ötmədim,
Tərk edib tez ötən xəyalım mənim.

Sanki yaşayırdım səmada hər gün,
Uçurdum göylərdə bəzən lap üzgün,
Mələklər seyr edər, baxardı bir gün
Qınayardı ölən xəyalım mənim.

Gözəllik, dedilər, xilas edəcək,
Baxın, dünya özü məhvə gedəcək.
İnsanda olan nəfs nə vaxt öləcək?
Qayıtma, tez sönən xəyalım mənim!

## Haqqa girəndə

Ruhun qan ağlayır, haqqa girəndə,
Cismin narahatdır, günah edirsən.
Acından gözləri yol çəkənlərin,
Göz yaşına dönüb məhvə gedirsən.

Boğur daxilində qəhər məzlumu,
Biçarə yaşayır, nə etsin daha.
Çatmaq istəyirsən hər bir arzuna,
Düşün ki, batırsan böyük günaha.

Qida ver ruhuna xeyir əməllə,
Allah ömür versin, çalış, ucal sən.
Sədəqə, zəkatı vaxtında verib,
Xoş firavan yaşa, belə qocal sən.

Köməyi dilində duası olur,
Sanıram savabdır, bəsindir deyim.
Bir tikə çörəyə de – möhtac olub,
Anlamayan bilməz, yoxudur geyim.

## Bənövşə rəngi

Gül görmək istəyən bağçaya tərəf
Addım-addım gedər, qoxulasın, deyə.
Sevgisin güllərə həsr edən gözəl,
Axtarar gözəllik, yoxlasın, deyə.

Tapar o rəngbərəng tər çiçəkləri,
Düzəldər adların baş hərflərin.
Doymaz ki, rəngindən bənövşələrin,
Eşidərlər ancaq xoş təriflərin.

Beləcə yaddaşda iz salar güllər,
Aparar keçmişə gedib-gələrsən.
Bəzən darıxarsan, lap kövrələrsən,
Yadına düşəndə hərdən gülərsən.

Həyat kimisinə şirin bal kimi,
Şad olar həzzini duyan insanlar.
Kiminə zəqqundur, atıb nəfsini,
Anlamaz ki, bunu heç vaxt nadanlar.

## Dəyişən zaman

Bəzən qorxuram ki, insanlıq ölər,
Yaşayar insanlar, zaman dəyişər.
Günahkar bəndələr çərçivəsində,
Haqqını deyənlər sözlə döyüşər.

Əməl sahibləri sözə nisbətdə,
Yaman gedir, baxın, həyat yolunda.
Seçərək səhv yolu düz mütənasib,
Addımlayır yavaş, şeytan qolunda.

Xidmət edir, çəkir nəfsi əziyyət,
Tac olar başına düşməz heç yerə.
İçində sıxıntı, qəmi, kədəri,
Yıxmış kürəyini – qalxmaz bir kərə.

İstərəm bu gözəl misralarımı,
Çox oxuyub haqqı sən anlayasan.
Həyatın ən gözəl insanı olub
Pak yol getməyəni tez danlayasan.

## Təəssüratım

Bülbül gəzər bağça içrə gülləri,
Qarğalar taparlar iyli ətləri.
Gözəllik görənlər gözəl yerləri,
Tapar sətirlərdə həmin xətləri.

Yazdığım şeirlər – mənası dərin,
Hər kəs anlamaz ki, – bax, yoxdur deyər.
Axar misraları süzülər dildən,
Qüsur axtaranlar səhv çoxdur, deyər.

Aqil insanları çıraqla gəzdim,
Nadan da özünü arif sayırdı.
Əzəldən xisləti xarab olanın,
Parıldayan üzün zülmət ayırdı.

Zəhmətlə yazılan hər bir bəndini,
Yazdım ki, oxuyub sən dərk edəsən.
Qafiyə, rədifi, heca bilməyən,
Yanlış söz yazmadan çıxıb gedəsən.

## Mənə pay oldu

Günlər üstə gəldi, günlər ay oldu,
Qazandığım nələr varsa, zay oldu.
Dərk etdim ki, bunlar mənə pay oldu
Yaşadım dünyayçün, qəlbə qəm doldu.

Bacarmırdım tutum oruc niyyətin,
İstədim Allahdan olmadı çətin.
Ramazanda didər şeytan öz ətin
Zəncirindən çıxa bilməz tünbətün.

Ta qədim vaxtından tanıdım səni,
Çətinlik olsa da, öyrətdin məni.
Qara saçlarıma saldın sən dəni
Heçə getdi ömrün önəmli günü.

Kaş ki olmayaydı bu dünya fani,
Üzlərdə təbəssüm olardı ani.
Danışın! Göstərin! Qalanlar hanı?
İbrət olsun sizə – tapın imanı.

## Sapdan da nazik

Köç etdim xəyalən fani dünyadan,
Yoxlamaq istədim – görən necədi?
Bir yol keçirdi ki, sapdan da nazik,
Baxanlar görmürdü – sanki gecədi.

Düz keçən az idi, soruşdum, kimdi?
Haqdan yayınanlar, susanlar düşdü.
Gülərək siratı mil kimi keçdi
Ağır günah edən buztək sürüşdü.

Çalışın, köçmədən yaxşı yaşayın,
Məzlumun haqqından faydalanmayın.
Bacarın dost olun, işə yarayın,
Üzməyin heç kəsi, tapdalamayın.

Don geyər üzünə, mələk görünər,
Daxili bir zülmət kömürə bənzər.
Dolanar içində, özü zülm edər,
İlahi deyərək, hər yanı gəzər.

## Çalışar güldürsün...

Danışmayan adam tanına bilməz,
Heç kəs anlamaz ki, qəlbindən silməz.
Çalışar güldürsün – qəmindən gülməz
Ürəkdə dərd çəkər, başı əyilməz.

Daşıyar öz yükün, çəkər-aparar,
Bəzən içində bir tufan qoparar.
Allaha əl açar – şəfasın tapar,
Gedər dərgahına nəfsini çapar.

Qalmadı ömürdən əsər-əlamət,
Vermədi dəyəri, etmədi hörmət.
Çalışın, göstərin haqlıya rəğbət
Verməsinlər ona şiddətli töhmət.

Ən böyük arzumdur günah etməyim,
Çalışım həyatda səhvə getməyim,
Həsəd apararaq daha ötməyim,
Tanrı nəzərindən bir də itməyim.

## Niyyətin pak olsa

Nədən ürəyini belə sıxırsan?
Qalan deyil heç nə, hey darıxırsan.
Fəryad qoparırsan, ömrü yıxırsan
Uyursan fitnəyə, yoldan çıxırsan.

Niyyətin pak olsa, haqqa çatarsan,
Yol tapıb qəlblərə sevgi satarsan,
Sanki düşünərsən – gedən qatarsan,
Səbr etsən, dünyaya nəfsin atarsan.

Nəzər etdim, baxdım hər bir insana
Çoxu şükür etdi, çatdı imana.
Fikir vermədilər gedən zamana,
Çatdılar puç olmuş ömrün sonuna.

Qaldı yaddaşımda təqvalı adam,
İbrət almadı heç, görmədim nadan,
Allah peyğəmbərdən göndərdi Quran,
Dərk edək, oxuyaq, öndərdi Quran.

## Haqsızlığa üsyan

Asdın gözlərindən böyük pərdəni,
Düzə əyri dedin, əyriyə də düz.
Yanlış fikirlərlə üz-üzə durub
Çətinə baş vurdun, dedin, burda üz.

Tanıdım zamanla, ey dünya, səni,
Bütün var gücünlə qəsdimə getdin.
Sınadın, tapmadın, qüsur görmədin,
Vəfalı insana, gör, nələr etdin.

Ədalət görmədim yolunda bir gün,
Yanmadın halıma, olmadım nikbin.
De – necə söyləyim insan müqəssir,
Solmasın üz rəngi, olmasın bədbin.

Dəyəri yerində ver ki bilinsin,
Ruhu qidalansın, üzü qoy gülsün.
Bəndənin haqqına girməsin heç kim,
Dua et, yalvar ki, haqsızlıq ölsün.

## Ürəklərdə yuva

Qapını döyən kəs, gəl, xoş gəlmisən,
Əvvəl bir salam ver, de görüm, kimsən.
Baxıram, elə bil sağkən ölmüsən
Həyat yorub səni, nəyinə kəmsən.

Saat əqrəbitək dövr edir zaman,
Söylə, bu dünyanı kim aparacaq?
Qayıtmaq olmur heç, düşün, ey insan,
Divanə olduğun eşq qoparacaq.

Axırsan su kimi, hey yol açırsan,
Kövrək ürəklərdə yuva qurursan.
Allah yazan yazı, hara qaçırsan?
Özün öz ömrünə qandal vurursan.

## Yardım et mənə

Aşkardır, görürsən göz önündəyəm,
Gözləmə, deyəcəm, yardım et mənə.
Vardırsa imkanın israfa vermə,
Kəsmə kimsə haqqın, haramdır sənə.

Çox yaxşı bilirsən əmək haqqını,
Bir günə xərclərsən məndə olanı.
Daha bəsdir yedin kimsənin pulun,
Övlad başa düşmür səndə olanı.

Səbrim də qalmadı, çıxdı kasamdan,
Oldum əsəbi, bax, mən gənc yaşımda.
Bəhrama qalmayan dünya malından,
Unutdun, sandın ki, sənsən başında.

Bu şeytan neyləsin, söylə, eşidim,
Deyirsən, haramdır – əməl etmirsən.
Allahın yanında böyük günahdır,
De mənə, nə üçün Haqqa getmirsən.

## Qəriblik

İllər yaman gəlir, ömürdən gedir,
Hardasan, xoş günüm, bəlkə gələsən.
Hər gün doğur günəş – gözlərim yolda,
Boy atır arzular, deyim, biləsən.

Qəribəm, qəriblik adətim olub,
Uzaqdan-uzağa duyurlar məni.
İçimdə qəribə qərib boğçası,
Açıldıqca sanki döyürlər məni.

Bilirəm, yoldasan, sürətin yavaş,
Çatmır səbrim mənim gözləyim bir az.
Verməz ağır yükü yaratdığına,
Quranı aç oxu, yaddaşına yaz.

Böyük bir nemətdir, yararlan, insan,
Qovuşma hissinə, ağlınla yaşa.
Nəfsinə aldandı, nəfsə qul oldu,
Vurdu rəzil kimi ömrünü başa.

## Eşq ocağında

Qəlbimdən qəlbinə sevgimdir axır,
Yaşamasan, hissin duya bilməzsən.
Gəl, eşq ocağında bir şam yandıraq,
Yanmasa, çırağı uya bilməzsən.

Süzürsən gözünü, bax, naz satırsan,
Alırsan ruhumu, çıxır canımdan.
Eşqin, məhəbbətin gücü nədirsə,
Ayırmaq istəsən, çıxmaz qanımdan.

Ölçüsü kiçikdir, dünyanı görür,
Allah yaratdığın çox gözəl bilir.
Sevgi var heç bitmir, sonadək gedir,
Nur alır insanlar, üzləri gülür.

Nədir göz dikmisən başqa birinə,
Çatmaq istəyirsən öz məqsədinə.
Kültək sovrulmusan eşqin gözünə,
Qurban oldun getdin, bil – həsədinə.

## Əlacı olarsa

Sanma bu dünyada dürüstdü hər kəs,
Sözü zamanında yerində deyə.
Çox adam görmüşəm həyatda, şair,
Az qalıb düşmənə bir boyun əyə.

Haqqını deməyi bacarmaz çoxu,
Əyilib qaməti, bükülüb boynu.
Zalım qarşısında susan yazığı,
Tələyə salıblar, qurublar oyunu.

Doymayır dünyadan, yaşayım, deyir,
Düşünmür qonaqdır, əbədi nə var.
Ağ kəfən geyəcək, ya geyməyəcək,
Əlacı olarsa, nə var aparar.

Nəfsə aldananlar əziyyət çəkir,
Allahı unudur, şeytanla gedir.
Hiylə edənlərin toruna düşür,
Sonunda Tanrıya ibadət edir.

## Sınaq

Sınadım həyatda dostu-düşməni
Dərs oldu sınağım, öyrətdi məni.
Saldım ürəyimə olub-keçəni
De – necə silim ki, onlar seçəni.

## Hara qaçırsan?

Almısan sevgimi, şəfəq saçırsan,
İz salıb ömrümə hey yol açırsan,
Daha bilmirəm ki, hara qaçırsan,
Tələsmə, yavaş qaç, lap az qalmısan!

Pay verdim həmin gün – qədrin biləsən,
Şən olub şəninə deyib-güləsən,
Ordan getməməkçün arzu dilə sən,
Ritmi tut, elə bil, sən saz çalmısan.

Baxıram, üzündən sanki nur yağır,
Dilindən süzülən o sözlər ağır,
Sıxır ürəyimi, deyir, get çağır,
Neynirəm, gedim ki, artıq almısan.

Yaşa imkan vermə kimsə köç etsin,
Məskunlaş qəlbimdə, gələn qoy getsin,
Salma qəlb evinə bu söhbət bitsin,
Dəyməz düşünməyə – fikrə dalmısan.

## Nəfsinə əyilən

Qaməti dik olan nəfsə əyildi,
Qul oldu, diz çökdü, keçdi həyadan.
Ağlını hissinə qurban verənlər,
Hələ də ayılmır qorxunc röyadan.

Aylar ilə döndü, heç dəyişmədin,
Abırsız yaşadın, üzülmədin sən.
Vaxt tapıb özünə sual vermədin,
Pislərdən ayrılıb, süzülmədin sən.

Anlamadın gözəl, iti baxışdan,
Batdıqca batırsan dərin dəryada.
Sığındın özgəyə, çıxdıq yadından,
Bu dərdə heç dözməz daş da, qaya da.

Açıldı qarşında bir böyük dəftər,
Mələklər başladı sual etməyə.
Cavab tapammadın bəd əməlinə
Razılaş əzablı yollar getməyə.

## Haramxor

Haqqımı yeyənə halal etmərəm,
Xəbərsiz gizlicə əgər yeyirsə.
Doymaz ki heç zaman haramı yeyən,
Məzlumun haqqından baha geyirsə.

Düşünün, bu dünya bir imtahandır,
Sınaqdan keçməyə bir-bir gəlirik.
Kəminə olmayıb razı bəşərin,
Narazı yaşayıb dərdin bilirik.

Varının üstünə varı gəldikcə,
Nəfsi, iştahası daha da artır.
Özünü düşünən nakam adamın,
Dolur qəlbinə qəm, məzara dartır.

Nəhayət başlayır olub-keçənlər,
Yolları ayrılır, yolçu olurlar.
Xeyirə vəsilə olan kəsləri,
Cənnət arzusuna yola salırlar.

## Səxavət

Dünyaya gəldimsə, iz qoymadımsa,
Qalmağım bəşərin nəyinə lazım.
Verilən ruzidən pay vermədimsə,
Savab işlərdən, de – mən necə yazım.

Əgər əməlimdə yoxdursa xeyir,
Danışın – susmayın, tez deyin mənə.
Göz yumub etdiyim günah işlərə,
Çağırın düz yola, etməyim yenə.

Zövq alın həyatdan, yaxşı yaşayın,
Toxunun qəlblərə, bir yuva qurun.
İsidin dərd çəkən kövrək ürəyi,
Ruh verin yaşasın, ayaqda dursun.

Demə ömür yolu yaman qısadır,
Az deyil, düşün ki, yollar ayrılır.
Kimi bu dünyadan gül bağçasına,
Kimini tikanlı məftil ayırır.

## Əsgər vüqarı

İstəmərəm ola müharibələr,
Uşaqlar anasız, atasız qalır.
Cəmiyyət haqqına girir kimsələr,
Dağıdır yurdları, didərgin salır.

Əlində silahı, gedir xidmətə,
Unudur evində körpə balasın.
Ana Vətən deyib, addımlar atır,
Özünə borc bilir qurur qalasın.

Canından keçərək hər şeyə rəğmən,
Körpüdə dayanır, düşmən qaytarır.
Baş əyir qarşında millətin, əsgər,
Deyim biləsən ki, yası saxlayır.

Bir insan ölümə sinə gərərək,
Xalqı təhlükədən deyin qoruyur.
İçində vətənə olan sevgisi,
Alıb apararaq zirvəyə qoyur.

## Günah hissi

İçimdə elə bil uşaq ağlayır,
Bu səs hardan gəlir – özüm bilmirəm.
Bəlkə günahlardı hiss elətdirir,
Qayıdım deyim ki, daha gəlmirəm.

Necə tərk edim, de, fani dünyanı,
Baxmadan geriyə çıxım, gedim mən.
Özünə bağlayır şirinliyilə,
Qubar olub ürək, saça düşüb dən.

Deyirsən, çəkmə qəm, hələ ki tezdir,
Susmaq olmur, bilin, adətdir deyim.
Süzülür daxildən düzdür sözlərim,
Haqdan gələn sözü, bax, necə əyim?

Arifə işarə Allahdan gələr,
Yolların fərqini öncədən görər.
Qəlbində hiss edər, yaşayar onu,
Toxuyar, üstə gəl bir hasar hörər.

## Qaçdı-tutdu dünyası

Ömür gedir saat kimi,
Hamı qaçır önə tərəf.
Qaçdı-tutdu dünyasıdır
Bilən varmı, nədir hədəf?

«Bəlkə, bir az yavaşlayaq?»
Sonluq nədir, kimə məlum.
Tamah tutdu, yaman qaçdız,
Heyf, olduz nəfsə məhkum.

Badalaqdan düşdüz oda,
İndi yalvar Allahına.
Haram yediz, halal varkən,
Girdiz məzlum günahına.

İman olsa – düzlük olar
Uzaqlaşma imanından.
Əməllərin təmizdirsə,
Qorxma haqqın mizanından.

## Dünyanın vəfası

Sıxıntılar müsafirdi,
Fikir etmə, gələr-gedər.
Qonaq olar ömrümüzə,
Kədər satar, məyus edər.

***

Bu dünyadan doymaz insan
İstər damaq, kefdə olsun.
Nadan qoymaz yaşamağa,
İstər qəlbə əzab dolsun.

***

Ədalətsiz fani dünya,
Vardır səndə çoxlu cəfa.
Rəhm eylə insanlara,
Görsün səndə hamı vəfa.

## Yaxşılara bərabər

Çox söylədim, az eşitdin
Ömür getdi qatar kimi.
Çatdın yolun yarısına,
Gətirmədi bəxtin simi.

Həyatını verdin boşa,
Heyf, getdi hər şey bada.
İnsan kimi yaşamadın,
Güvəndin sən özgə, yada.

Demə dünya mənasızdır,
Axtaranlar tapar məna.
Düz yolunu seçməyənin,
Qarşısına çıxar fəna.

Yatmışları kim oyadar?
Ölmüş vicdan röyasından
Yaxşılarla otur-dur ki,
Zövq alasan mayasından.

## Qəlb yükü

Uzaqdan-uzağa qəlb necə sevər,
Bu yükü qəlbində daşıyan bilər.
Ruhum çıxıb candan qovuşmaq istər,
Mənə yalnız kömək Allahdan gələr.

Adını bir sevgi dastanı yazma,
Daxilən yazılan yaddaşda qalır.
Məhəbbət odunda yanıb kül olan,
Sonunda dünyanı yadına salır.

Təmiz eşq yolçusu olsan həyatda,
Axtar ki, Tanrını tapasan orda.
Əbədi eşqlərin sonu görünmür,
Sən qalmış olsan da çətində, zorda.

Sevirəm həyatı insan xətrinə,
Ömür pilləsindən hələ düşürəm.
Haqlını nahaqla eyni görəndə,
Dünya – öz gözümdən belə düşürəm.

## Həyatın qınaqları

Yenə nə olub ki, batmısan qəmə,
Axır göz yaşların yanaqlarından.
Qəlbini kim qırıb, desən, bilərdim,
Bezmisən həyatın qınaqlarından.

Tale yükün sənin, çox çətin oldu
Taqətin qalmayıb, zəif düşmüsən.
Çəkib daxilində acı möhnəti,
Dərdlərin içində yaman bişmisən.

Hər kəsdən özünə, dəstək umursan
Bu bir təsəllidir, yaxşı bilirəm.
Yükünü bir azca azaltmaq üçün,
Bədbin həyatına qonaq gəlirəm.

Bu dünya fanidir, unutmayasan
Həsrəti, kədəri qoyaq qırağa.
Yaz çiçəkləritək ömrün gül açsın
Sən qalib gələsən çətin sınağa.

## Ləngərlik

Uzun bir yoldayam, davam edirəm,
Bəzən yoruluram bilin ki, hərdən.
Uzaq görünsə də bu yolun sonu,
Həzzini alıram axan o tərdən.

Sanıram adətdir fani dünyada,
Çəkməsən əziyyət – yeməzsən çörək.
Bu bir imtahandır insana yazıb,
Havayı verilməz bir qaşıq xörək.

Halal tikə itməz – bir başqa olar,
Yemə insan payın, bil, qazan dolmaz.
Pak olmaq hər kəsə nəsib olarsa,
Dünyanın cənnətdən heç fərqi olmaz.

Aldığın nəfəs var, bax, şükürlü ol,
Ən böyük nemətdir – verilmiş sənə.
Bu dünya müqəssir demək düz deyil,
Özüm zəifəm ki, nəfs qalib mənə.

## Tanrının yazdığı

Ömrümə gün kimi şəfəq saçırsan,
Tanrının bəxtimə yazdığı insan.
Nə gözəl qismətim varmış, ilahi,
Daha xoşbəxtəm ki, olacaq imkan.

Verdiyin bir nurdur, daim parlayır,
Qaranlıq olarsa, şam kimi yanır.
Üzümə gülənim günəşim mənim,
Unutmur biləsən həmişə sanır.

Deyə bilərəm ki, xoşbəxt deyiləm?
Bu sözlə ən böyük günah edərəm.
Dünyanın bəxtiyar insanı olsam,
Qayıdıb dünyanın əksin gedərəm.

Axtarmıram günəş, nurum var deyə,
Hər yer aydınlıqdır, iki göz baxır.
Baxan o gözlərdən süzülən məna,
Gənclərin pak olan qəlbinə axır.

## Özgə atın minən

Məni gözdən salma, deyirəm, anla,
Tanıyır, bilirlər kim olur nadan.
Özünü çox yorma, çalış yaxşı bax,
Qınamaq asandır, bil ki, çox asan.

Öncə kimliyinə çalış nəzər sal,
Sonra özgə atın minib çapasan.
Dünya karvanında çıxma sıradan,
Yaxşı işlər öyrən – pisdən qopasan.

Hər sözün hikməti ibrət olsa da,
Yaşayar, danışmaz, göstərər zaman.
Sözün də öz yeri, demək, vaxtı var,
Adam var danışsan verməz heç aman.

Gəlin bir nəsihət edim mən sizə,
Baxmayın fəqirdir, tənha yaşayır.
Qəlbində böyük bir Allah sevgisi,
Yorulmadan böyük bir ad daşıyır.

## Anarsan məni

Deyirsən, bax mənə, bir təsəlli al,
Unutma keçmişi, dönüb yada sal.
Pisi unut orda, yaxşılarla qal
Çalış bu həyatın ritmini tut, çal.

Aparar xəyala xəyallar səni,
Gəzərsən dağları, yaşıl meşəni,
Quşlar oxuyarlar həzin nəğməni,
Meyxoş edər səni, anarsan məni.

Bilmirəm müqəssir, de – kimdi dünya!
Qalmayıb çoxunda nə abır-həya.
Aqil sayır özün deyirsən duya,
Çalışdım, çox dedim bildi də, guya.

Bəşərdə yaşayıb zövq də alasan,
Zalım olmayasan, bir şən olasan,
Qəlblərə dəyməyib gümrah qalasan,
Arzumdur zirvəyə tez ucalasan.

## Hamı dəryadadır

Bir beyin içində dünya yerləşir,
Yaradan yaratdı, biləsiz, deyim.
Bəşərdə ən böyük dərya yerləşir,
Hamı dəryadadır, böləsiz, deyim.

İnsanlar olmasa heç nədir dünya,
Şahıdır bəşərin, dərk edin bunu.
Bütün nələr varsa bu kainatda,
İman gətirərək tərk edin onu.
Sonunda hər kəs de kəfən geyəcək,
Etdiyi əməllər şahid olacaq.
Qayıtmaq istəsə, bitdi deyəcək,
Apardığı kitab orda dolacaq.

Əzablar dövr edir, qazan qaynayır,
Bu dünyada haram yeyən ağlayır,
Nəfsə hakim olan yaman oynayır
Kaş kef çəkməyəydim, deyən ağlayır.

## Mənə daş atan

Bilmirəm nə işdi, niyə yatmıram,
Bu dünya bir yalan – haqqa satmıram,
Heç kəsə kiçik bir daş da atmıram,
Çoxdur mənə indi o daşdan atan
***
Kim məmnun oldu ki, hamısı getdi,
Çox insanlara bu, xəyanət etdi,
Özünü şux tutdu, əmanət etdi,
Axtardım, görmədim bir başdan atan.
***
Bir ömür bəxş etdi uca yaradan
Ağı seçə bildin sən heç qaradan?
Bilərəkdən çıxdın belə aradan,
Anladın gec oldu, ey yaşdan atan.
***
Gərək sən əzəldən biləydin bunu,
Buğdanı döyərdin, ələrdin unu,
Öyrədən olsaydı insana onu
Yoğurardın xəmir sən aşdan atan.

## Ağlamasın insan

Gəl, qəlbinə əkim bir gül, solmasın,
Ağlamasın insan, gözü dolmasın,
De - qəm də olmasın, kədər olmasın,
Yadıma düşəndə gözlərim dolur.

***

Sevgidən-kədərə gedən yoldayam,
Çuxurlu yoldayam, düşün, koldayam,
Heç kəs demir mənə, indi soldayam,
Daha düşünmürəm, güllər də solur.

***

Yolumuz bax, birdir, məzar ayrıdır,
Qəlbimiz də birdir, yazar ayrıdır,
Şan-şöhrət ayrıdır, azar ayrıdır,
Bir ölən zamanı ayrı yol olur.

***

Hər gələnə güldü, xoş sifət verdi,
Zamanla insana bir ülfət verdi,
Sirrini saxladı gör - illət verdi,
Canların üstündə hələ can yolur.

## Tənhalıq

Mən də sənin kimi təkəm dünyamda,
ayrı bir dünya var, sözüm içimdə,
sığmır yerə-göyə, yekəm röyamda,
yenə də təkəm mən, gözüm içimdə.
***
Bax hərdən ətrafa, tapasan bir kol,
Qəlblərə bir yol aç, hərdən çarə ol.
Unutma yaxşını, ol sən ona yol
tək-tənha qalmayım çözüm içimdə.
***
tanıdım dostumu, yaxın-yadı da,
görmədim olsun heç, dostun dadı da,
qaxdılar başıma təmiz adı da
əridim şam kimi, dözüm içimdə.
***
Gəl sınama məni, bir də etmərəm,
O yolu tək-tənha, sənsiz getmərəm,
Heç zaman bu yoldan belə ötmərəm,
qoy bir odun olum közüm içimdə.

## İkiliklər

Sözlər var, sinəmdən çay kimi axır,
Duru axmır axı, yaman lil axır.

Mənası dərindi, çəkisi ağır,
Söz var ki, insanın qəlbini alır.

Ağızdan çıxan söz bil ki, satılır,
Kimi ibrət alır, kimi də atır.

Çoxu sözə deyil, deyənə baxır,
Nə bir dərs alır, nə də ki, həzz alır.

Sanma ki, dili var, amma danışmır,
Dil var, söz ağırdır, bil gücü çatmır.

Dağdan böyük dağı sözlər aşırır,
Şirin söz insanı ruhən yaşadır.

## Rəbbimə sarı

Müsafirəm haqq yolunda, gedirəm,
Namazla ruhuma qida verirəm,
Rəbbim, yolum sənədir, tək gəlirəm
Qoyma yorulum mən, səcdə edirəm.

Şadam, gənc yaşımda tanıdım səni,
Xoşbəxtəm, şükür ki, dərk etdim səni.
Kaş ki sınamazdın heç bir bəndəni,
Görərdi şeytan da, biz də çöhrəni.

Bəşər oldu sənə tabe, əmr etdin,
Quluna rəhm edib, güzəştə getdin.
Nə gözəl Allahsan mərhəmət etdin,
Ac qoymadın, Tanrım, ruzi də verdin.

Açılan əl gördüm, boş qayıtmadı,
Kim iman gətirdi, heç yanılmadı,
Allah sevən bəndə bil yıxılmadı,
Qəlbdə yer aldı, daha da ucaldı.

## Görəsən...

Mənim adım Məciddir,
Mənim altı yaşım var,
O qədər sevincliyəm,
elə bil ki, indi mən,
Məktəbin içindəyəm.
Atam tutub əlimdən
Məktəbdən aparacaq.
Görəsən, həmin zaman nə vaxt gəlib çatacaq?...
Hər gün bu xəyallarla
Yaşayır Məcid bala,
Gözləyir ata yolun,
Gəlib onu aparacaq.
Görəsən, həmin zaman nə vaxt gəlib çatacaq?...
Ata vətən yolunda
Məcidi tənha qoyub,
Yoxdur onun xəbəri,
Atası şəhid olub.
Məcid də arzularla
yaşayır neçə vaxtdı,
Yalanların əlindən
Qalmayıb da marağı,
gözləyir həmin vaxtı.
Yoldadır, gəlir atam,

əlimdən tutub mənim,
məktəbə aparacaq
Görəsən, həmin zaman nə vaxt gəlib çatacaq?...

# MÜNDƏRİCAT


Lövbərsiz gəmi........................................................................ 4
İttiham ................................................................................... 5
Vətən övladları! ..................................................................... 6
Xatirələr yaşadır..................................................................... 7
İmansız etmə məni ................................................................ 8
Ağlama, ey ruhum .................................................................. 9
Tənha qalmadım..................................................................... 10
Ədalət yolçusu ........................................................................ 11
Qəm yerinə gül....................................................................... 12
Şəfa ver özün.......................................................................... 13
Uca zirvədə ............................................................................ 14
Yaxın dost .............................................................................. 15
Hər damcıdan kədər ............................................................... 16
Dünyanın vəhşəti ................................................................... 17
Gözəlim üçün ......................................................................... 18
Axıram su kimi ...................................................................... 19
Sətirlərə yazdım ..................................................................... 20
Kaş ki... .................................................................................. 21
Arzu-istək............................................................................... 22
Gəzmə bu cahanı.................................................................... 23
Bilinmir .................................................................................. 24
Əzabkeş.................................................................................. 25
Dərd yükü............................................................................... 26
Haqq yolu............................................................................... 27
Xəzinə qutusu......................................................................... 28
Tövsiyə................................................................................... 29
Dərsini kim danışsa................................................................ 30

Əhdə vəfadar .......... 31
Həm də sevilin .......... 32
Təqvalıq arzusu .......... 33
Çalış yaşat məni .......... 34
Örnək .......... 35
Doymaq da olmur .......... 36
Saf gülüşlərin .......... 37
Hər kəs bir günəş altda .......... 38
Qeybət etməyək .......... 39
Ömürlük məskən .......... 40
Paklığa çağırış .......... 41
Şahidlik .......... 42
Aldanmayın .......... 43
Sevinin .......... 44
Qələmin sahibi .......... 45
Qəlblərdən çəkilən yol .......... 46
Dərin izlər .......... 47
Haqqa girəndə .......... 48
Bənövşə rəngi .......... 49
Dəyişən zaman .......... 50
Təəssüratım .......... 51
Mənə pay oldu .......... 52
Sapdan da nazik .......... 53
Çalışar güldürsün... .......... 54
Niyyətin pak olsa .......... 55
Haqsızlığa üsyan .......... 56
Ürəklərdə yuva .......... 57
Yardım et mənə .......... 58
Qəriblik .......... 59
Eşq ocağında .......... 60
Əlacı olarsa .......... 61

Sınaq ........................................................................ 62
Hara qaçırsan?.......................................................... 63
Nəfsinə əyilən ........................................................... 64
Haramxor .................................................................. 65
Səxavət...................................................................... 66
Əsgər vüqarı.............................................................. 67
Günah hissi................................................................ 68
Qaçdı-tutdu dünyası .................................................. 69
Dünyanın vəfası ......................................................... 70
Yaxşılara bərabər....................................................... 71
Qəlb yükü.................................................................. 72
Həyatın qınaqları....................................................... 73
Ləngərlik ................................................................... 74
Tanrının yazdığı ........................................................ 75
Özgə atın minən ........................................................ 76
Anarsan məni ............................................................ 77
Hamı dəryadadır........................................................ 78
Mənə daş atan ........................................................... 79
Ağlamasın insan........................................................ 80
Tənhalıq .................................................................... 81
İkiliklər...................................................................... 82
Rəbbimə sarı ............................................................. 83
Görəsən... .................................................................. 84